Ədəbiyyat qəzeti

26 4 dekabr 2021-ci il

# Xanəli KƏRİMLİ - 70



Hörmətli Xanəli Kərimli!

Sizi - tanınmış şair və filoloq alimi, pedaqoqu, Naxçıvan Dövlət Universitetinin dosentini 70 illiyiniz münasibətilə təbrik edirik.

Siz 1951-ci il noyabr ayının 27-də Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuş, səkkizillik təhsilinizi Mahmudobada, orta təhsilinizi isə Şahbuz qəsəbə orta məktəbində tamamlamısınız. Bir qələm və düşüncə adamı kimi elmə və ədəbi mühitə ötən əsrin 80-ci illərində gəlmisiniz. İlk qələm təcrübəniz kimi diqqəti cəlb edən və yerli mətbu orqanlarından sonra 1985-ci ildə Türkiyədə nəşr olunan "Qardaş ədəbiyyatlar" dərgisində yayımlanan "Toğluqayanın Məmməd Araza məktubu" şeirinizin uğuru sizi gələcəyin qələm sahibi kimi vaxtından əvvəl tanıtdı və sevdirdi. O illərdən sonra siz bir-birinin ardınca "Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004), "Mənə elə gəlir ki..." (2008), "Duyğularım, düşüncələrim" (2011 - İran, Urmiya), "Mənim könlüm bir ümmandır" (2011 - İran,Urmiya), "Payız duyğuları" (2013), "Ahlat taşı" (2019 - Türkiyə, İstanbul), "Mir v moix ladonyax" (2020), "Tanrı müjdəsi" (2021) kimi şeir kitablarınızı nəşr etmisiniz. Bu kitablar ayrı-ayrı vaxtlarda elmi-ədəbi mühit tərəfindən layiqincə dəyərləndirilərək yaradıcılığınızla bağlı "Xanəli Kərimli-55: Şairə məktub" (2007), "Xanəli Kərimli-60: Sözün Əlincə qalası" (2011), "Xanəli Kərimli-65: Bir ömrün işığı" (2016), "Xanəli Kərimli-70: Şairin könül dünyası" (2021) məqalələr topluları, tanınmış tədqiqatçı alim Sabir Bəşirovun "Xanəli Kərimli-60: Bir ömrün nağılı" (2011) monoqrafiyası, tanınmış şair-publisist Əli Rza Xələflinin yaradıcılığınızla bağlı "Söz və qan" (2016) kitabları nəşr olunaraq oxucu auditoriyasına təqdim edilib.

Haqqınızda Əməkdar mədəniyyət işçisi, kino-rejissor Arif Qədimov Naxçıvan "Əcəmifilm" kinostudiyasında "Payız duyğulu şair ömrü: Xanəli Kərimli" (2014) adlı sənədli film çəkib.

Həmçinin, sizin şeirləriniz bir sıra aparıcı dillərə - türk, rus, ingilis, fransız, fars dillərinə tərcümə olunaraq yayımlanıb.

Hörmətli Xanəli Kərimli, siz 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib təyinat üzrə Şahbuz rayonunun Badamlısu qəsəbə və Mahmudoba kənd orta məktəblərində müəllim işləməklə yanaşı, həm də AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin dissertantı kimi elmi işlə də məşğul olmuş və 1987-ci ildə "Demokratik Cənubi Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafı (1941-1970)" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini almısınız. Elə buna görə də taleyinizi 1991-ci ildən Naxçıvan Dövlət Universiteti ilə bağlamısınız; əvvəlcə, universitetin ilk mətbu orqanı olan "Fikir" qəzetinin ilk redaktoru (1991-1996), sonra Beynəlxalq Əlaqələr şöbəsinin rəisi (1996-1998), Xarici tələbələrlə iş üzrə dekan (1998-2014) vəzifələrində işləməklə bərabər, həm də Azərbaycan ədəbiyyatı kafedrasının dosenti kimi də fəaliyyət göstərirsiniz. Eyni zamanda bu illər ərzində Azərbaycan elmini, mədəniyyətini Türkiyədə, Hollandiyada, Pakistanda, İranda, Gürcüstanda keçirilən bir sıra beynəlxalq elmi konfrans, simpozium və tədbirlərdə ləyaqətlə təmsil etmisiniz.

Siz ikinci çağırış (2000-2005) Naxçıvan MR Ali Məclisinin deputatı olduğunuz zaman da öhdənizə düşən ictimai vəzifəni layiqincə yerinə yetirmisiniz. Dövlətimiz əməyinizi yüksək qiymətləndirərək sizə 2007-ci ildə "Naxçıvan MR-in Əməkdar müəllimi" fəxri adını vermişdir.

Hörmətli Xanəli Kərimli, 2004-cü ilin may ayında keçirilən Azərbaycan Yazıçılarının XI qurultayına Naxçıvan Yazıçılar Birliyi tərəfindən nümayəndə seçilməklə bərabər, həmin qurultayda Naxçıvan ədəbi mühiti ilə bağlı məruzə ilə çıxış etmək səlahiyyəti də sizə həvalə edilmişdir.

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**